# 15 İyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür

Ötən əsrin 80-ci illərinin sonu dünyada, xüsusən sosialist düşərgəsində və keçmiş SSRİ-də baş ve-



rən ictimai-siyasi hadisələr nəticəsində Azərbaycan xalqı əsrlərdən bəri arzusunda olduğu müstəqilliyinə qovuşdu. 1991-ci ilin oktyabrında Azərbaycan Respublikası Ali Soveti Müstəqillik haqqında Konstitusiya aktını qəbul etdi. Ancaq SSRİ-yə daxil olan digər respublikalara nisbətən Azərbaycanda müstəqillik yolu daha çətin idi. Tarixin bütün oxşar məqamlarında olduğu kimi qonşu Ermənistan öz xəyanətkar sifətini göstərərək vətənimizə qarşı ərazi iddiaları irəli sürdü və xaricdən olan çox saylı havadarlarının maliyyə, silah və canlı qüvvə yardımı ilə yüz minlərlə soydaşımızı əzəli yurdlarından qovmağa və ərazilərimizi işğal etməyə başladı.

Ermənistanın təcavüzü, hakimiyyətin səriştəsizliyi Azərbaycanda özbaşnalıq, xaos hallarının artmasına, hakimiyyətin iflasına gətirib çıxarmışdı.

1992-ci ilin may ayında AXC-Müsavat cütlüyünün vəziyyətdən istifadə edərək zorla hakimiyyətə gəlməsi ölkədə vəziyyəti daha dramatik hala saldı.

AXC-Müsavat hakimiyyəti dövründə hər vəzifəli və ya imkanlı şəxsin öz silahlı dəstəsi vardı ki, bu da hakimiyyətsizliyin bariz nümunəsi idi.

1993-cü ilin yazında AXC-Müsavat hakimiyyətinin polkovnik rütbəsi verdiyi, Milli Qəhrəman fəxri adı ilə təltif etdiyi, Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndə təyin olunmuş Surət Hüseynov cəbhədən ordunu Gəncə şəhərinə çəkərək başda prezident Əbülfəz Elçibəy olmaqla hökumətin tam tərkibdə istefasını tələb etdi. Beləliklə ölkədə vətəndaş qarşıdurması, Azərbaycan dövlətinin yenidən xəritədən silinmək təhlükəsi yarandı.

Mövcud hakimiyyətin vəziyyəti nəzarətə almaq qabiliyyətinin olmadığını başa düşən xalq Azərbaycanın dahi oğlu Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb etdi.

Belə taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya gələrək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başladı. Ümummilli ilderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç nədən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım oldu. Bundan bir neçə gün sonra iyun ayının 15-də ulu öndər xalqın istəyini, parlamentdə səslənən təkidli xahişləri nəzərə alaraq Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməyə razılıq verdi. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrildi. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**

# Bayram tədbiri keçirilmişdir

Nicat Apayev adına şəhər 4 nömrəli məktəbdə IV[b] sinif şagirdlərinin iştirakı ilə



1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş bayram tədbiri keçirilmişdir.

Məktəbin direktoru Qəşəngi Musayeva tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmiş, uşaqların beynəlxalq müdafiəsi günü haqqında şagirdlərə ətraflı məlumat vermişdir. Qəşəngi Musayeva çıxışında ölkəmizdə uşaqlara göstərilən dövlət qayğısının gücləndirilməsindən, uşaq problemlərinə diqqətin artırılmasından, uşaqlarla bağlı demoqrafik perspektivlərin müəyyənləşdirilməsi istiqamətində görülən işlərdən ətraflı söz açmışdır.



Sinif rəhbəri Zümrüd Alməmmədovanın rəhbərliyi ilə hazırlanan musiqili-əyləncəli bayram şənliyində tədris işləri üzrə direktor müavinləri Rəna Rzayeva, Məlahət Nəsrullayeva, məktəbin müəllimlərindən Dünyaxanım Əhmədova və digərləri şagirdləri təbrik edərək onlara xoşbəxtlik, sevinc, aydın səma və təhsildə uğurlar arzulamışlar.

**Aqil COMƏRDOV.**

*«Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi».*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***

# Müsəlman Şərqinin ilk respublikası-Azərbaycan Xalq Cümhuriyyəti

***Bu günlərdə Azərbayan xalqı müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini böyük təntənə və qürur hissi ilə qeyd edib.***

***Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin, müstəqilliyimizin yüz illiyi qeyd ediləcəyini bildirərək deyib: "Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq”.***

“Azərbaycan Xalq Cümhuriyyəti İli”ndə keçiriləcək çoxsaylı tədbirlər dövlətçilik tariximizin, ənənələrimizin öyrənilməsi və təbliğ olunmasına, xüsusilə gənc nəslin dövlətçilik şüurunun möhkəmlənməsinə xidmət edir. Bu ənənələrin qorunması və gələcək nəsillərə ötürülməsi də tarixi mirasımıza sahib çıxmaqdan, onu yaşatmaqdan keçir. Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi də məhz bu məqsədə xidmət edir.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyi haqqında “İstiqlal bəyannaməsi”ni qəbul etdi. Milli Şuranın 24 səslə (iki nəfər - Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov bitərəf qaldı) qəbul etdiyi qərar və altı bənddən ibarət “İstiqlal bəyannaməsi”, yaxud “Misağimilli” (əqdnamə) Azərbaycan dövlətinin yarandığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı - “İstiqlal bəyannaməsi”nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edildi, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirildi, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapdı. “İstiqlal bəyannaməsi”ndə demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. Bu sənəd Azərbaycan millətinin millətmədəniyyət statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa - millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100 1918 2018

Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto tanınmasına qədər dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir müddət ərzində normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20- dən çox dövlətlə, o cümlədən, Türkiyə, Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və başqaları ilə baş konsulluq, konsul agentlikləri səviyyəsində əlaqələr qurmağa nail oldu. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. Yeni yaranmış dövlət öz fəaliyyəti dövründə “türkləşmək, islamlaşmaq və müasirləşmək” ideyası uğrunda mübarizə aparırdı. Hökumət Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzaladı. Azərbaycan dilli savadlı kadrların çatışmazlığı nəzərə alınaraq, dövlət idarələrində müvəqqəti olaraq rus dilindən də istifadə olunmasına icazə verildi. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - yaşıl, qırmızı və mavi zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

Avqustun 11-də ümumi hərbi səfərbərlik elan edildi və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də Hərbiyyə Nazirliyinin yaradılması haqqında qərar qəbul olundu. Dekabrın 25-də general Səmədağa Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sülkeviç Baş qərargah rəisi təyin edildilər. 1919-cu ilin yayında Bakını tərk edən ingilislər şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. İngilislərdən alınan gəmilər hesabına Xəzər donanması yaradıldı.

**(Ardı 4-cü səhifədə).**